# Yazıçı Aqil Abbasın oxuculara yubiley töhfəsi

**Müasir Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən sayılan Aqil Abbas ömrünün 70-ci baharında oxucularla növbəti görüşə "Çay qırağında bitib, susuz qalan ağacların sağlığına" kitabı ilə gəlib. Povestin təqdimatı Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda keçirildi.**

Tədbiri giriş sözü ilə açan AYB-nin katibi Elçin Hüseynbəyli bildirdi ki, Aqil Abbas hər birimizin duyğu və düşüncələrinə təsir edə bilən istedadlı yazıçı və nüfuzlu publisist kimi bənzərsizdir. Onun roman, povest və hekayələri sadə danışıq dilimizlə ədəbi dilimizin sintezi üzərində qurulub.



AMEA N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbi tənqid şöbəsinin müdiri, filologiya elmləri doktoru Vaqif Yusifli çıxışında bildirdi: "Mən onun ilk yazılarından üzübəri bütün əsərlərini oxumuşam. O, nəsrdə öz möhürünü inamla vurub. "Batman qılınc", "Dolu", "Çadırda Üzeyir Hacıbəyov doğula bilməz" kimi əsərləri cəmiyyətimizdə maraqla qarşılanıb. "Dolu", ümumiyyətlə, Birinci Qarabağ müharibəsi haqqında ən yaxşı romandır. Mən ona daha böyük yaradıcılıq uğurları arzu edirəm".

Akademik Nizami Cəfərov da Aqil Abbas yaradıcılığı və şəxsiyyətindən bəhs edərək bildirdi ki, onun haqqında danışmaq və düşünmək xoşdur. Aqil Abbas özünü səmimiyyəti və istedadı ilə elə sevdirib ki, onun haqqında ancaq müsbət danışmaq olar. A. Abbas lirikanı çox sevir, təbiət etibarilə də bədii publisistdir.

Tənqidçi Əsəd Cahangir təqdim olunan əsərin məziyyətlərindən danışaraq qeyd etdi ki, hadisələr çox sürətlə inkişaf edir, amma sosial, siyasi, mənəvi, əxlaqi məsələlərə konkret münasibət bildirilir. Bu isə əsl istedadlara məxsus keyfiyyətdir.

Yazıçı Seyran Səxavət, Milli Məclisin deputatı Etibar Əliyev, AYB-nin Qarabağ bölməsinin müdiri Elçin İsgəndərzadə, digər ziyalılar Gülər Mikayılqızı, Rasim Müzəfferli, Vaqif Bəhmənli, Zemfira Məhərrəmli, Vaqif Əlisoy, Seyfəddin Altaylı Aqil Abbas yaradıcılığından ətraflı söhbət açdılar.

Sonda Aqil Abbas iştirakçılara minnətdarlığını bildirdi.

***Anar TURAN, "Xalq qəzeti"***